“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 82.0**

**AYSƏN QURBANOVA**
“Naxçıvan” Universiteti
gurbanly96@gmail.com

# “MAARİFÇİLİK HƏRƏKATININ İNKİŞAFINDA CƏLİL MƏMMƏDQULUZADƏNİN XİDMƏTLƏRİ”

*“Maarifçilik hərəkatının inkişafinda C Məmmədquluzadənin xidmətləri” mövzusunda yazılmış elmi məqalədə maarifçilik hərəkatının formalaşmasında C.Məmmədquluzadənin fəaliyyətindən sönbət açilmlşdır. Azərbaycan xalq maarifinin və maarifçilik hərəkatının mühüm səhifələrini təşkil edən və Mirzə Cəlilin “Milli intibah dövrü” adlandırdığı XX əsrin əvvəllərində yazıb-yaradan sənətkarların da dil, maarif və məktəb məsələlərinə çox böyük əhəmiyyət verməsindən bəhs olunmuşdur. Vahid ana dili, xalq üçün ümumi bir dil, ədəbi dil problemi milli məsələlərdən birincisi olduğundan bütün yazarlar bu məsələlərə hər zaman diqqət yetirmişlər. Azərbaycan, azərbaycançılıq və maarifçilik məsələlərini Mirzə Cəlil qədər açıq, aydın, kəskin şəkildə qoyan başqa bir ədib tapmaq çətindir. Məqalədə bütün bu məsələlər öz əksini tapmışdır.*

**Açar sözlər:** *maarif, mədəniyyət, azərbaycançılıq, məktəb, Mirzə Cəlil, sənətkar, ana dili, millilik,ədəbiyyat və s.*

“Azərbaycan ədəbiyyatımızda qədim dövr humanizminin mahiyyət və xarakterini öyrənmək üçün Nizami poeziyası, orta əsrlər şeiri və məhəbbət lirikasının ictimai və intim keyfiyyətlərini bilmək üçün Füzuli yaradıcılığı, XX əsr romantizminin mürəkkəb xüsusiyyətlərini araşdırmaq üçün Hüseyn Cavid dramaturgiyası nə qədər zəngin, əlvan material verirsə, yeni ədəbiyyatın ən qüdrətli məktəbi olan realizm üslubunun şəkil və məzmun xüsusiyyətlərini dürüst müəyyən etmək üçün də Mirzə Cəlilin əsərləri əvəzsiz və tükənməz mənbədir”(1,77). XX əsr ədəbiyyatı tarixində milli məsələləri real baxımdan əks etdirməkdə Mirzə Cəlil kimi ikinci bir sənətkar tapmaq olduqca çətindir. O, yazdığı bütün əsərlərində dövrünün eyiblərini açıb göstərməkdə mahir bir sənətkar idi. Cəlil Məmmədquluzadə yaşadığı dövr ərzində qələmini bir çox mövzularda sınamışdır. Yazdığı əsərlərdə, məqalələrdə, felyetonlarda hər zaman çalışmışdır ki, çatışmazlıqları göstərsin, buna da nail olmuşdur. Ədib uzun yaradıcılığı dövrü müxtəlif təzyiqlərə məruz qalsa da məqsədindən, amalından əsla dönməmişdir. Mirzə Cəlilin ədəbi-ictimai fəaliyyəti o qədər geniş, o qədər zəngin və əhatəlidir ki, hələ onun sağlığında belə öz təsirini bütün Yaxın Şərqdə göstərmişdir. Müsəlman Şərqində, daha doğrusu, Azərbaycan dili anlaşılan elə bir ölkə yoxdur ki, orada Cəlil Məmmədquluzadəni bu və ya başqa dərəcədə tanımasınlar C.Məmmədquluzadənin ideya-mənəvi təkamülünə aşağıdakı

**Məqalə tarixçəsi:**
Göndərilib: 12.02.2019, qəbul edilib: 26.02.2019

istiqamətlər təsir göstərmişdir: oxuduğu seminariya, maarifçi-pedaqoji mühit və ədəbi- mədəni mühit. Azərbaycan maarifçilik hərəkatının inkişafında Cəlil Məmmədquluzadə çox böyük rol oynamışdır. O, ictimai-ədəbi fikir meydanına ilk növbədə maarifçi kimi qədəm qoymuşdur. XIX əsrin səksəninci illərində maarifçilik onun üçün müəllimliklə başlamışdır. Mirzə Cəlilin Baş Noraşendə müəllimlik fəaliyyəti onun bədii yaradıcılığının başlanğıc dövrü oldu. Böyük ədib özünün ilk əsəri olan “Çay dəsgahı” alleqorik dramını 1889-cu ildə Baş Noraşendə tamamlamışdır. Sonralar isə bir-birinin ardınca yazdığı “Kişmiş oyunu” və “Ölülər” əsərlərində baş verən hadisələrlə səsləşən əhvalatları da burada müəllimlik etdiyi illərdə eşitmişdir.

Cəlil Məmmədquluzadənin maarifçilik hərəkatı dövründəki fəaliyyətinin ikinci mərhələsi 1890-1903-cü illəri əhatə edir. Demək olar ki, doxsanıncı illərdə Naxçıvan ictimai-ədəbi mühitində maarifçilik hərəkatının inkişafı ilə bağlı nə varsa, hamısı C.Məmmədquluzadənin adı ilə bağlıdır. Təhsil aldığı mühit Cəlil Məmmədquluzadənin ideya-mənəvi təkamülünə ciddi təsir göstərmişdir. Mollaxana təhsili onun ərəb-fars dillərini öyrənməsinə, Şərq ədəbiyyatı nümunələri ilə ilkin tanışlığına, mütaliə vərdişlərinə yiyələnməsinə şərait yaratmışdır. Naxçıvan şəhər məktəbinin mədəni-pedaqoji mühiti eyni zamanda milli xarakteri formalaşdıran və gələcək həyat yolunu müəyyənləşdirən ilkin nümunələrə çevrilmişdir.

XX əsrin əvvəllərində mətbuatla yanaşı, məktəb, maarif ocaqlarının sayı da artmağa başlamışdır. Köhnə molla məktəblərində, mədrəsələrdə sürətlə islahat başlanmışdır. Şəriət, din dərsləri ilə yanaşı, dünyəvi, dəqiq elmlər də təlim olunurdu. Üsuli-cədid deyilən yeni Avropa sistemli məktəblər açılırdı.

Maarifçilik hərəkatının formalaşması Azərbaycanın digər yerlərində olduğu kimi, Naxçıvanda da milli maarifçi ziyalıların yeni nəslini yetişdirmişdir. Naxçıvan ictimai-ədəbi mühitində Cəlil Məmmədquluzadə, Eynəli bəy Sultanov, Məhəmməd Tağı Sidqi və başqaları yeni maarifpərvər qüvvə kimi meydana çıxmışlar. Məktəb və teatr hərəkatından başqa regionda milli ədəbiyyatın tərəqqi tapması da bu nəslin istedadlı nümayəndələrinin adı ilə bağlı idi. Bu maarifçilərin bədii yaradıcılıq aləminə qədəm qoymaları təkcə Naxçıvan mühitinin deyil, bütünlüklə Azərbaycanda gedən maarifçi ədəbi proseslərin məntiqi yekunu və nailiyyəti idi. Milli ədəbiyyatımızdakı sənətkarları birləşdirən əsas cəhət olan millilik, ziyalılıq və vətəndaşlıq Mirzə Cəlilin şəxsiyyətində və yaradıcılığında özünün ən yüksək zirvəsinə çatmışdır. C.Məmmədquluzadə üçün məktəb milli maarifçiliyin özəyini, müəllimlik isə əsas hərəkətverici qüvvəsini təşkil edirdi. Ümumiyyətlə, Cəlil Məmmədquluzadə doğulduğu Naxçıvan üçün misilsiz xidmətlər göstərmişdir. Bunlardan biri də maarifin ayrılmaz hissəsi olan teatrdır. Elə maarifçiliyin də əsas silahı, hərəkətverici qüvvəsi, təsir vasitəsi teatrdır. Bu onunla bağlıdır ki, milli-ictimai ədəbi fikirdə teatr bir növ məktəb kimi qiymətləndirilmişdir. Teatr böyüklər üçün bir növ məktəbdir. Necə ki, uşaqlar məktəbdə gözəl təhsil alırlar, böyüklər də teatrdan gözəl sifətlər, gözəl fikirlər alırlar. Bu mənada Cəlil Məmmədquluzadə Naxçıvan teatrının ilk yaradıcılarındandır. O, tamaşalarda təşkilatçı, rejissor və aktyor kimi iştirak etmişdir. XIX əsrin 80-90-cı illərində Naxçıvanda yerli

həvəskarlar tərəfindən tamaşaya qoyulmuş əsərlərin demək olar ki, hamısında C.Məmmədquluzadə müəyyən rolları ifa etmişdir. Naxçıvan teatrı ayrı-ayrı peşələrdə çalışan cəmiyyətin müxtəlif təbəqələrini özündə cəmləşdirən mühüm mədəni mərkəz idi. Buna görə də C.Məmmədquluzadə teatr hərəkatına başçılıq etməklə bütün maarifçi qüvvələrə rəhbərlik missiyasını yerinə yetirmişdir. C.Məmmədquluzadənin maarifçi müasirlərinin demək olar ki, hamısı teatr hərəkatında iştirak etmişdir.

Ümumiyyətlə, elmi ədəbiyyatlarda bütövlükdə "XIX əsr Azərbaycan maarifçilik və maarifçi realizm əsri" kimi dəyərləndirilir. Əsrin birinci yarısı maarifçi ideyaların yaranması və genişlənməsi dövrü kimi xarakterizə olunur. Əslində bu hadisələr ictimai mühitin bütün sahələrində yeniləşmə meyllərini formalaşdırmışdır. Yəni, ilk məktəblər meydana gəlmiş, müəllimlərin birinci dəstəsi yetişmişdir. Naxçıvan ədəbi mühiti də XIX əsrin 80-90-cı illərində müstəqil bir mədəni mərkəz səviyyəsində yaranıb inkişaf etmişdir.

Mirzə Cəlilin maarifçilik xidmətlərindən biri də Türk dünyası üçün əhəmiyyətli jurnal olan "Molla Nəsrəddin"in işıq üzü görməsi idi. Qısa bir müddətdə "Molla Nəsrəddin" ədəbi cəbhəsi formalaşdı. Cəlil Məmmədquluzadənin səyi və təşkilatçılığı ilə jurnalın ətrafında Azərbaycan ədəbiyyatının "Molla Nəsrəddin" məktəbi kimi şöhrətlənmiş bütöv bir nəsli toplaşdı. Bu jurnalın nəşri Azərbaycan ədəbiyyatında ictimai-siyasi fikrin formalaşmasında təkrarolunmaz əhəmiyyətə malikdir. Jurnalın Tiflisdə nəşr olunması Tiflisdəki Azərbaycan mühitini daha da qüvvətləndirdi. Böyük ədib "Molla Nəsrəddin" jurnalında da uşaqların ev, məktəb tərbiyəsi məsələlərinə böyük yer verirdi. Həm də bu jurnalın əsas və daimi mövzularından biri də ana dilinin varlığı, təmizliyi uğrunda mübarizə idi. "İlk nömrəsindən, hətta "Sizi deyib gəlmişəm" adı ilə məşhur olan proqram məqaləsindən başlayaraq, jurnal Azərbaycan dilini yad təsirlərə uğratmaq istəyənlərə qarşı çıxırdı. Dolaşıq yazılara, ərəb-fars təsirinə, azərbaycanlıların çətin mənimsədiyi ərəb əlifbasına qarşı sadə dil və yazını qoyurdu. C.Məmmədquluzadə jurnalda bu mühüm mövzuya onlarla felyeton, şeir həsr etmişdir.

"Molla Nəsrəddin" jurnalı və onun əməkdaşları əcnəbi dillərin öyrənilməsi əleyhinə deyildilər. Onlar əcnəbi təsirinə məruz qalıb, ana dilinə etinasızlıq edənlərə, onu bəyənməyən, yad kəlmələri yerli-yersiz işlətməklə dili eybəcərləşdirənlərə zidd idilər" (1, 38). Eyni zamanda Azərbaycan dili və mədəniyyətinə həqarətlə baxanları tənqid edirdi. XX əsr ədəbiyyatımız tarixində Azərbaycan, azərbaycançılıq və maarifçilik məsələlərini Mirzə Cəlil qədər açıq, aydın, kəskin şəkildə qoyan başqa bir ədib tapmaq çətindir. Azərbaycan kəndlərində müəllimlik edən ədib, rəsmi sənədlərlə həyat arasındakı, xəyal ilə həqiqət arasındakı dərin uçurumu görür və bütün bunları öz əsərlərində təsvir etməyə çalışırdı. Ədib həmişə həqiqi elmi, maarifi müdafiə və təbliğ edirdi.

Avam adamla oxumuşlar arasındakı ziddiyyət "Anamın kitabı"nda daha çox diqqəti cəlb edir. Burada Cəlil Məmmədquluzadə o zamankı Azərbaycan ziyalılarının daxili ziddiyyətlərini, sinfi təbəqələşməsini göstərmişdir. Əsərdə ana vətənin mənəvi həyatını əsas mövzu seçən, ictimai qüvvələrin tənasübünü verən ədib əcnəbi təsirləri və bunlardan hər birinin mahiyyətini, iç üzünü məha-

rətlə göstərmişdir. Demək olar ki, ədibin bütün əsərlərində millilik, mədəniyyət, maarif, ana dili azərbaycançılıq məsələləri ön plana çəkilmişdir.

Ümumiyyətlə, C.Məmmədquluzadənin pedaqoji fəaliyyəti Azərbaycan xalq maarifinin və maarifçilik hərəkatının mühüm səhifələrini təşkil edir. Mirzə Cəlilin “Milli intibah dövrü” adlandırdığı XX əsrin əvvəllərində ədəbiyyatdakı başlanğıc Naxçıvanda ədəbi inkişafın sürətlənməsinə səbəb oldu. Elm, mədəniyyət, ədəbiyyat məqsədyönlü və ahəngdar inkişaf etməyə başladı. Mənalı həyatını doğma xalqının azadlığı və səadəti yolunda mübarizəyə həsr edən, ədəbiyyat, mədəniyyət xəzinəmizi əvəzsiz incilərlə zənginləşdirən böyük ədibimizin ölməz əsərləri bu gün də öz aktuallığı ilə diqqəti cəlb edir. Əsl sənət xalqın həyat və məişətini, dilini, istək və arzularını kamil ifadə edə bilən sənətdir. Bu mənada Cəlil Məmmədquluzadənin fəaliyyəti danılmazdır.

## ƏDƏBİYYAT


1. Mir Cəlal, F.Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982
2. İ .Həbibbəyli. Cəlil Məmmədquluzadə: mühiti, müasirləri. Bakı, 1997
3. İ.Həbibbəyli. “Molla Nəsrəddin” ədəbi məktəbi və Mollanəsrəddinçilik. “Ədəbiyyat” qəzeti, 07.04.2006, №14
4. Cəlil Məmmədquluzadə. “Xatiratım”, Bakı, 1971
5. Ə.Nazim. C.Məmmədquluzadə və yaradıcılığı. Seçilmiş əsərləri. Bakı, 1979


## РЕЗЮМЕ

**АЙСЕН ГУРБАНОВА**

### ЗАСЛУГИ ДЖАЛИЛА МАМЕДКУЛУЗАДЕ В РАЗВИТИИ ОБРАЗОВАТЕЛЬНОГО ДВИЖЕНИЯ

В научной статье, написанной на тему «Заслуги Дж. Мамедкулузаде в развитии образовательного движения» говорится о педагогической деятельности Дж. Мамедкулузаде в формировании образовательного движения. В статье упоминается о деятельности литераторов в начале XX века, которую Мирза Джалиль называл «этапом национального возрождения», о большом значении, которое было дано в тот период языку, школе и образованию. Было уделено особое внимание со стороны всех писателей идее необходимости единого родного языка, единого языка для народа и единого литературного языка. Трудно найти второго такого литератора, который бы так резко ставил вопросы азербайджанства и образовательности, как Мирза Джалил. В статье нашли свое отражение все эти вопросы.

**Ключевые слова:** образование, культура, школа, литератор, мастер, родной язык, национализм, литература, азербайджанство

## SUMMARY

**AYSEN GURBANOVA**

### “THE SERVICE OF J.MAMMADGULUZADƏ IN THE DEVELOPMENT EDUCATIONAL ACTIVITIES MOVEMENT”

In a scientific article written on the theme "The merits of J. Mammadguluzadeh in the development of the educational movement" refers to the educational

activities of J. Mamedkuluzade in the formation of the educational movement. The article mentions the activities of writers in the early twentieth century, which Mirza Jalil called the "stage of national revival", the great importance given to language, school and education at that time. Special attention was paid by all writers to the idea of the need for a single native language, a common language for the people and a common literary language. It is difficult to find a second such writer who would so sharply raise the issues of Azerbaijanism and education as Mirza Jalil. The article reflected all these questions.

**Key words:** education, culture, azerbaijanism, school, writer, craftsman, mother tongue, nationalism, literature and etc.

*(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)*